# Niyə səhvlər qorxulu deyil?

Çoxlarımız öz həyatımız, biznesimiz və ya karyeramız barədə danışanda ancaq müsbət hadisəıər xatırlayırıq. Uzaqdan elə görünür ki, bizim həyatımızda ancaq müsbət hadislər olur, səhv etməmişik və s. Əslində isə, butün uğurlu insanların arxalarında 100lərlə uğursuz layihələr var. Biz hesab edirik ki, səhv etmək faydalıdır. Bilirsiz niyə?

Əlbəttə bu o demək deyil ki, biznesdə səhv etmək, düzdən daha yaxşıdır. Heçdə yox. Bununla razı deyilik, hətta hesab edirik ki, ağıllı insanlar digərlərinin səhvlərindən nəticə çıxarmağı bacaranlardır. Buna baxmayaraq, biznesdə səhv etmək çox təbiidir. Axı biznes yenilikçilikdir. Yenilikçi insan isə, daim səhv etməli olur, ən azı ona görə ki, gələcək haqqında proqnoz verə bilmir.

Səhvlər bizi düzgün istiqamətə düşməyə kömək edir. Biznesdə vacib olan səhv etmək deyil, buraxdığımız səhvlərdən vaxtında nəticə çıxarmaqdır. Bunun üçün daim müşahidə etmək şərtdir. Səhv etməkdən qorxmayın!

ƏLAVƏ OXUMAQ ÜÇÜN:

- Qorxan gözü çöp düşər
- Yenilik olmasa nə olar?